# 09 İsa Məsihin Ölüləri Diriltməsi

## Yəhya 11:1-57

1 Lazar adlı bir adam xəstələnmişdi. O, Məryəmlə bacısı Martanın yaşadığı Bet-Anya kəndindən
idi. 2 Rəbbin üzərinə ətirli yağ çəkib ayaqlarını saçları ilə silən həmin Məryəm idi. Xəstələnən Lazar
onun qardaşı idi. 3 Bu səbəbdən iki bacı «ya Rəbb, sevdiyin adam xəstədir» deyə İsaya xəbər
göndərdi. 4 İsa bunu eşidib dedi: «Bu xəstəliyin nəticəsi ölüm yox, Tanrının izzəti və Tanrı Oğlunun
bununla izzət qazanması olacaq». 5 İsa Martanı, onun bacısını və Lazarı sevirdi. 6 Buna görə də
Lazarın xəstələndiyini eşidəndə olduğu yerdə daha iki gün qaldı. 7 Sonra isə şagirdlərə «yenə
Yəhudeyaya gedək» dedi. 8 Şagirdlər Ona dedilər: «Rabbi, oradakı Yəhudilər bir az əvvəl Səni
daşqalaq etməyə çalışırdı. Sən yenə də oraya qayıdırsan?» 9 İsa cavab verdi: «Gündə on iki saat
yoxdurmu? Kim gündüz vaxtı gəzərsə, büdrəməz, çünki bu dünyanın nurunu görür. 10 Lakin kim
gecə vaxtı gəzərsə, büdrəyər, çünki daxilində nur yoxdur». 11 İsa bu sözləri söylədikdən sonra onlara
dedi: «Dostumuz Lazar uyuyub. Mən onu oyatmaq üçün gedirəm». 12 Onda şagirdlər Ona dedilər:
«Əgər uyuyubsa, sağalacaq». 13 İsa onun ölümü barədə danışmışdı, amma onlar elə bildilər ki,
yuxuya getdiyini söyləyib. 14 Onda İsa onlara açıqca dedi: «Lazar ölüb. 15 Mən də sizin uğrunuzda,
iman etməyiniz üçün orada olmadığıma sevinirəm. Amma gəlin onun yanına gedək». 16 «Əkiz»
adlanan Tomas o biri şagirdlərə dedi: «Biz də gedək ki, Onunla ölək». 17 İsa gəlib Lazarın artıq dörd
gündən bəri qəbirdə olduğunu bildi. 18 Bet-Anya ilə Yerusəlim arasında on beş stadi məsafə var
idi. 19 Bir çox Yəhudi Marta və Məryəmə qardaşlarının ölümünə görə təsəlli verməyə
gəlmişdi. 20 Marta İsanın gəldiyini eşidəndə Onu qarşılamağa çıxdı, ancaq Məryəm evdə
oturmuşdu. 21 Marta İsaya dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım ölməzdi. 22 Ancaq
bilirəm ki, Sən indi də Tanrıdan nə diləsən, O Sənə verəcək». 23 İsa ona «qardaşın diriləcək»
dedi. 24 Marta Ona dedi: «Bilirəm ki, dirilmə zamanı, son gündə o da diriləcək». 25 İsa ona dedi:
«Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar, 26 yaşayıb Mənə iman edən də heç vaxt
ölməz. Buna inanırsanmı?» 27 Marta Ona cavab verdi: «Bəli, ya Rəbb, inanıram ki, dünyaya gəlməli
olan Tanrıın Oğlu Məsih Sənsən». 28 Marta bunu söylədikdən sonra gedib bacısı Məryəmi gizlicə
çağırdı və dedi: «Müəllim buradadır, səni çağırır». 29 Məryəm bunu eşidən kimi tez qalxıb İsanın
yanına getdi. 30 İsa hələ kəndə girməyib Martanın Onu qarşıladığı yerdə qalmışdı. 31 Məryəmlə birgə
evdə olan və ona təsəlli verən Yəhudilər qadının tez qalxıb bayıra çıxdığını görəndə elə bildilər ki,
ağlamaq üçün qəbirin yanına gedir. Buna görə də onun ardınca getdilər. 32 Məryəm İsanın olduğu
yerə gəlib Onu gördü və ayaqlarına düşüb dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım
ölməzdi». 33 İsa onun və yanında gələn Yəhudilərin ağladığını görəndə əhvalı pozuldu və təlaşa
düşdü. 34 İsa onlardan «Mərhumu haraya qoymusunuz?» deyə soruşdu. Ona «Ağa, gəl bax»
dedilər. 35 İsa ağladı. 36 Onda Yəhudilər «Bax onu necə də sevirmiş!» söylədilər. 37 Lakin onlardan
bəzisi dedi: «Korun gözlərini açan bu Şəxs bir şey edə bilməzdi ki, bu adam ölməsin?» 38 O zaman
İsa yenə əhvalı pozulmuş halda qəbirin yanına gəldi. Qəbir bir mağara idi və ağzına daş
qoyulmuşdu. 39 İsa «daşı götürün» dedi. Mərhumun bacısı Marta Ona dedi: «Ya Rəbb, artıq iylənib,
çünki öldüyü dörd gündür». 40 İsa dedi: «Axı Mən sənə söyləmədimmi, iman etsən, Tanrıın izzətini
görəcəksən?» 41 Beləcə daşı götürdülər. İsa da başını yuxarı qaldırıb dedi: «Ey Ata, Məni eşitdiyin
üçün Sənə şükür edirəm. 42 Bilirəm ki, Məni həmişə eşidirsən. Lakin bunu ətrafımda duran xalq
üçün söylədim ki, Məni Sən göndərdiyinə inansınlar». 43 Bu sözləri söylədikdən sonra «Lazar, bayıra
çıx!» deyə bərkdən qışqırdı. 44 Ölü də bayıra çıxdı. Onun əl-ayağı sarğılarla və üzü dəsmalla
bağlanmışdı. İsa onlara «onu açın və buraxın getsin» dedi. 45 Onda Məryəmin yanına gələn və İsanın
nə etdiyini görən Yəhudilərin bir çoxu Ona iman etdi. 46 Lakin onlardan bəzisi fariseylərin yanına
gedib İsanın nə etdiyini onlara danışdı.

47 Onda başçı kahinlər və fariseylər Ali Şuranı toplayıb dedilər: «Nə edək? Bu Adam çoxlu əlamət
göstərir. 48 Əgər Ona mane olmasaq, hamı Ona iman edəcək. Romalılar da gəlib məbədimizi və
millətimizi məhv edəcək». 49 Orada olanlardan biri, həmin il baş kahin olan Qayafa onlara dedi: «Siz
heç nə bilmirsiniz. 50 Başa düşmürsünüz ki, bütün bu millətin məhv olmağındansa bir Adamın xalq

uğrunda ölməsi sizin üçün daha yaxşıdır?» 51 O bu sözləri özündən söyləmədi, lakin o il baş kahin
olduğu üçün peyğəmbərlik edib xəbər verdi ki, İsa bu millətin uğrunda – 52 təkcə millətin uğrunda
deyil, Tanrının hər tərəfə səpələnmiş övladlarını bir yerə toplamaq üçün öləcək. 53 Beləcə o gündən
etibarən İsanı öldürməyi qərara aldılar. 54 Buna görə də İsa daha Yəhudilərin arasında açıq gəzmirdi.
Oradan çöllüyə yaxın diyara, Efrayim adlanan şəhərə getdi və şagirdlərlə orada qaldı. 55 Yəhudilərin
Pasxa bayramı yaxınlaşırdı. Çoxlu adam paklanmaq üçün Pasxadan qabaq kəndlərdən Yerusəlimə
getdi. 56 Onlar İsanı axtarırdılar və məbəddə dayanıb bir-birlərinə deyirdilər: «Necə fikirləşirsiniz?
O, bayrama heç gəlməyəcəkmi?» 57 Başçı kahinlər və fariseylər Onu tutmaq məqsədi ilə «harada
olduğunu kim bilirsə, göstərsin» deyə əmr vermişdilər.

## **Sorular:**

- Fəsildəki personajlar nə hiss edirdilər?
- Fəsli oxuyarkən özünüzü necə hiss etdiniz?
- İsa Məsih haqqında nə öyrənə bilərik?
- İsa Məsihə iman etmək və həyata malik olmaq arasında nə əlaqə var? (24-25)
- Öyrəndiklərinizi kiminlə bölüşə bilərsiniz?